# Təvəkkül Boysunarın yeni kitabı

Təvəkkül Boysunarın yeni kitabı çap olunub. "Sonuncu aşiqlik" adlı bu kitabda yer alan mətnlərin əksəriyyəti əvvəllər heç bir mətbu orqanda dərc edilməmiş hekayələrdir. Qeyd edək ki, müəllif 2021-ci ildə Mədəniyyət Nazirliyinin keçirdiyi hekayə müsabiqəsində, 2023-cü ildə isə Y.Səmədoğlu adına "İlin ən yaxşı nəsr əsəri" müsabiqəsində I yerə layiq görülüb. O, eyni zamanda bir sıra ingilisdilli müəlliflərin əsərlərini, eləcə də Ş.Andersonun "Vaynzburq, Ohayo" və E.Heminqueyin "Səyyar şənlik" kitablarını ana dilimizə tərcümə edib.

"Sonuncu aşiqlik" müəllifin ikinci kitabıdır.

